Rabitəbank 133

## Xidmətin üstünlükləri:

- Rabitəbankın kartları vasitəsilə Siz həftənin istənilən günü, 24 saat ərzində Kartdan karta (“Card to Card”) xidmətindən istifadə etməklə özünüzün digər bir kartınıza və ya başqa bir adamın kartına pul köçürə bilərsiniz.
- Kartdan karta (“Card to card”) xidməti pul köçürməyin ən sadə və sürətli üsuludur.
- Card to Card xidməti vasitəsi ilə göndərilən vəsait digər hesaba dərhal mədaxil olunur.
- Köçürülən məbləğə məhdudiyyət qoyulmur
- Pulu köçürərkən banka gəlməyə ehtiyac yoxdur

## “Card to card” xidmətdən necə istifadə etmək olar?

- Bank kartını bankomata daxil edərək əsas menyuda “Kart Transfer” bəndini seçirsiniz
- Vəsaiti göndərmək istədiyiniz şəxsin kartının 16 rəqəmini daxil edirsiniz
- Daxil etdiyiniz 16 rəqəmli nömrənin düzgünlüyünü təsdiq etmək üçün onu yenidən daxil edirsiniz
- Məbləği daxil edib, təsdiq düyməsini sıxdıqda əməliyyat həyata keçirilmiş olur.

## “Dostdan istə”xidmətdən necə istifadə etmək olar?

- Dostunuza pul sorğusu göndərmək üçün Mobil applikasiya vasitəsilə “Əməliyyatlar” menyusuna daxil olursunuz.
- “Əməliyyatlar” menyusunda “Daha çox göstər”düyməsini sıxdıqdan sonra, “Dostdan İstə” bölməsinə keçid edirsiniz.
- Hesabınızı seçirsiniz,”Kimdən”düyməsini sıxdıqda telefon kitabçanızdakı dostunuzun nömrəsini seçib,məbləği və valyutanı daxil edirisiniz.
- Növbəti “Təsdiq” menyusunda məlumatları təsdiqləyirsiniz.
- Beləlikə dostunuzun nömrəsinə SMS vasitəsilə web səhifənin linki göndərilir.
- Dostunuz linkə daxil olub,kart məlumatlarını daxil etdikdən sonra məbləğ kartınıza göndərilir.

*Mobil və İnternet Bankçılıq xidmətləri vasitləsilə “Card to Card” əməliyyatı aparmaq mümkündür.